KİVDF
www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub

# Ölkəmizdə zəfərançılığın inkişafı üçün böyük potensial var

**Paxlavanın, halvanın**
**naxışısan, dadısan.**
**Ləzzətisən xörəyin,**
**ətirisən çörəyin...**

Süfrələrimizin bəzəyi, şirniyyatlara, plova ətir və dad verən zəfəran. Milli mətbəximizin qiyməti qızıla bərabər olan, bir vaxtlar nənələrimizin kiçik torbalarda qoruyub saxladıqları, analarımızın paxlavasında, halvasında, aşında əvəzsiz yeri olan, hazırda isə tapılması müşkülə çevrilən ədviyyatı. Zəfəran təkcə yeməklərə dad vermir, onu ürəyi xəstə olanlar da dəmləyib içəndə şəfa tapırlar.

Zəfəran dünyada ən qiymətli kənd təsərrüfatı məhsullarından biridir və şübhəsiz, münbit torpaqları ilə zəngin olan Azərbaycanda da onun yetişdirilməsi üçün hər cür şərait var.

Dünyanın bir neçə ölkəsində yetişdirilən zəfəran, necə deyərlər, min bir dərdin dərmanıdır. Qoxusu bədənin müqavimətini artırır, sinir zəifliyini aradan qaldırır, sakitləşdirici təsirə malikdir. Zəfəran temperaturu salır, öskürəyi kəsir. Bu xüsusiyyətlərinə görə, astma və bronxit xəstəliklərində faydalıdır. Bundan əlavə, bu qiymətli bitki qaraciyər, öd, ürək, göz xəstəliklərinin də dərmanı ola bilər. Zəfəran diş əti ağrılarını azaldır və dişləri qüvvətləndirir.

### Qızıl qiymətinə dəyərləndirilən bitki

Dünya bazarında zəfəran istehsal edən ölkələr arasında İran birinci yerdədir. Bu ölkə 2015-2016-cı illərdə 350 ton zəfəran istehsal edib ki, bu da dünya istehsalının 90-95 faizi deməkdir. Sonrakı yerləri Hindistan (10-15 ton), Yunanıstan (6-10 ton), Əfqanıstan (6 ton), Əlcəzair (3-4 ton), İspaniya (2 ton) tutur. 2015-2016-cı illərdə bütün dünyada 95 min hektarda zəfəran əkilib.

2016-cı ildə İspaniya 53 milyon dollar dəyərində zəfəran idxal edib, bu isə dünya idxalının 25 faizini təşkil edir. Onu da qeyd edək ki, İspaniyada zəfəran becərilmir, bu ölkə İrandan aldığı xammalı qablaşdıraraq, öz brendi ilə dünya bazarına çıxarır. Ən iri ixracatçı olan İran isə 2016-cı ildə xarici bazarlara 246,7 milyon ABŞ dolları dəyərində 172 ton məhsul göndərib. İranın zəfəran ixrac etdiyi ölkələr Birləşmiş Ərəb Əmirlikləri, İspaniya, Səudiyyə Ərəbistanı, Fransa və İtaliyadır. Son vaxtlar Azərbaycana da zəfəran İrandan gətirilir.

Bu qiymətli bitkinin yetişdirilməsi ixrac potensialının artırılmasında, ölkəyə əlavə valyuta gətirilməsində də mühüm rol oynaya bilər. Həm qida, həm də əczaçılıq sənayesində mühüm xammal hesab olunan zəfəranın dünya bazarında bir qramı növ və keyfiyyətindən asılı olaraq 5-35 avro arasında dəyişir. Çox təəssüf ki, hazırda bu səmərəli sahə bir qədər kölgədə qalıb. Qeyd etmək yerinə düşər ki, Abşeron zəfəranının keyfiyyətinə görə tayı-bərabəri yoxdur. Hazırda ölkəmizə İrandan gətirilmiş zəfəran satılsa da, onun keyfiyyəti Abşeron zəfəranı ilə müqayisədə aşağıdır. İspaniya, Portuqaliya zəfəranı da keyfiyyətcə İran zəfəranından geri qalır. Zəfəranın ən keyfiyyətlisi məhz Abşeron torpağında yetişir. Sözsüz ki, məhsulun bu qədər keyfiyyətli olmasına iqlim şəraiti də təsir göstərir.

### Azərbaycanda zəfəranın tarixi

Azərbaycanda zəfəran bitkisinin əkilib-becərilməsi qədim tarixə malikdir. Bəzi mənbələrə görə, zəfəran Azərbaycana VIII-IX əsrlərdə Kiçik Asiyadan gətirilib. IX əsrdə Abşeronda yetişdirilən zəfəran əsasən Rusiyaya və bir sıra Avropa ölkələrinə ixrac edilirdi. Azərbaycan zəfəranı keyfiyyətinə görə şöhrət qazanmışdı.

Əvvəllər Dərbənd ərazisində, Ağdam, Salyan və Gəncə ətrafında zəfəran becərilirmiş. Xüsusən də, Abşeronun soyuq keçməyən qışı, günəşli yayı və münbit torpağı zəfəranın becərilməsi üçün çox əlverişlidir. 1927-ci ildə Bilgəhdə Zəfərançılıq sovxozu da yaradılmışdı. Burada mövsüm ərzində 252 hektarda zəfəran becərilərdi. 1980-1985-ci illərdə Azərbaycanda ildə 100-120 kiloqram zəfəran istehsal olunurdu. XX əsrin əvvəllərində ölkəmizdə təxminən 150 hektar ərazidə zəfəran əkilirdi. Sonralar Abşeronda zəfəran əkinləri azalaraq 2000-ci ildə yox olma səviyyəsinə çatdı. Hazırda ölkə əhalisinin zəfərana olan tələbatı əsasən idxal hesabına ödənilir.

### Zəfəran istehsalı ilə bağlı Dövlət Proqramı hazırlanacaq

Azərbaycanda zəfəran istehsalının genişləndirilməsi ilə bağlı Dövlət Proqramının hazırlanması planlaşdırılır. Bu barədə danışan Kənd Təsərrüfatı Nazirliyinin bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin müdir müavini Fərman Kərimov deyib: "Hazırda Azərbaycanda zəfərana olan tələbat daha çox İrandan ucuz idxal hesabına ödənilir. Halbuki yerli məhsulun keyfiyyəti nəinki İranda, hətta İspaniya və İtaliyada yetişdirilən zəfəranın keyfiyyətindən yüksəkdir. Daxili bazardan İranın saxta və keyfiyyətsiz zəfəranı yığışdırılsa, yerli fermerlərin məhsullarına tələbat da artar. Bununla da, nəinki daxili tələbat ödənər, həm də ixrac hesabına ölkəyə valyuta daxil olar. Bütün bu perspektivlər nəzərə alınaraq, zəfəranla bağlı Dövlət Proqramının hazırlanması, bu sahədə seleksiya və toxumçuluq işlərinin görülməsi nəzərdə tutulub".

Onun sözlərinə görə, hazırda ölkədə zəfəran əkini sahələri SSRİ dövrü ilə müqayisədə təxminən 30 dəfə azdır: "Əvvəllər Bakı, Gəncə və Şəkidə 430 hektar ərazidə zəfəran əkilib. Hazırda yalnız Bakının Zirə qəsəbəsində 6,5 hektar ərazidə zəfəran yetişdirilir. Bu rəqəmin



12 hektara çatdırılması nəzərdə tutulub. Bundan başqa, SSRİ dövründə Bilgəh qəsəbəsində zəfəran sovxozu var idi. Ondan da 8 hektar qalıb. Əvvəllər Azərbaycanda ildə 600 kiloqram zəfəran istehsal olunardı, hazırda bu rəqəmin nə qədər olduğu məlum deyil. Bununla bağlı statistikanın aparılmasına gələn ildən başlanacaq".

Fərman Kərimov onu da qeyd edib ki, gələcəkdə zəfəran istehsalçılarına subsidiya da verilə bilər. "Nazirlər Kabinetinin subsidiya ilə bağlı qərarında zəfəran istehsalının stimullaşdırılması məsələsi yer almayıb. Gələcəkdə bu məsələnin həmin qərara salınmasını təklif edəcəyik. Çünki kifayət qədər vacib sahədir. Zəfərandan 300 adda dərman preparatı hazırlanır. Bunlar əsasən ürək-damar və onkoloji xəstələr üçündür. Həmçinin, zəfəran 50-yə yaxın şirniyyat növünün tərkibində istifadə edilir. Bir müddət əvvəl ölkədə zəfəran balını istehsal etməklə bağlı təklif irəli sürülmüşdü. Sözügedən addım reallaşsa, bu, Azərbaycanın brendi ola bilər", - deyə nazirliyin rəsmisi əlavə edib.

### Zəfəran becərən sahibkara ilk olaraq nə qədər vəsait lazımdır?

Qeyd etdiyimiz kimi, Azərbaycanda zəfəran istehsalının artırılması üçün müvafiq potensial var. Ölkəmizdə bir hektar ərazidə zəfəran becərilməsi üçün 2-2,5 ton soğanaq tələb olunur. Bir kiloqram soğanağın qiyməti isə təxminən 5 manatdır. Beləliklə, təkcə toxum xərci 10-12,5 min manat təşkil edir. Ümumiyyətlə, Azərbaycanda il ərzində bir hektar zəfəran sahəsindən 2-2,5 kiloqram məhsul əldə etmək mümkündür. Bu isə o deməkdir ki, zəfəran becərən sahibkara ilk olaraq 15 min manata yaxın vəsait lazımdır. Sahibkar iki il ərzində zəfəran yetişdirməklə xərclərini çıxara, növbəti üç ildə isə böyük məbləğdə mənfəət əldə edə bilər.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Mahir Abbaszadənin sözlərinə görə, son illər cənab prezidentin rəhbərliyilə Azərbaycanda qeyri-neft sektorunun inkişafına ciddi diqqət yetirilir. Hazırda Azərbaycanda zəfəran istehsalına da ehtiyac var: "Bilirsiniz, sovet dövründə zəfəran istehsalı Bakı və Bakı kəndlərində xüsusilə inkişaf etdirilmişdi. Bu sahənin potensialı hələ də yerindədir. Bakıda az miqdarda olsa da, həmin ənənələr qalır. Düzdür, zəfəranın satışı ilə şəxsi adamlar məşğul olur. Amma bunu dövlət səviyyəsinə qaldırmaq, daha böyük əraziləri əhatə etmək üçün tədbirlər görülməlidir".

### Abşeronda zəfərançılığın bərpasına başlanıb

Bilgəh Zəfərançılıq Sovxozunun briqadiri Rafiq Xaliqovun sözlərinə görə, Abşeron rayon İcra Hakimiyyətində zəfərançılığın inkişafı ilə bağlı xüsusi bir layihə də hazırlanıb. Bu sahədə fəaliyyət göstərən sahibkarlara güzəştli kreditlərin ayrılmasına yardım göstərilib. Bundan əlavə, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda kənd təsərrüfatı rayonu kimi formalaşmış Abşeronun əvvəlki şöhrətinin özünə qaytarılması, xüsusilə cənab Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq rayon ərazisində Abşerona xas olan zeytun, badam, üzüm bağlarının, zəfərançılığın inkişafı, heyvandarlıq məhsullarının istehsalının artırılmasına dair müddəalar yer alıb. Dövlət Proqramında Abşeron yarımadasında və digər regionlarda zəfərançılığın bərpası və genişləndirilməsinin dəstəklənməsi qeyd olunub.

Bu günlərdə, yanvarın 23-də Pirallahı Sənaye Parkında yeni rezident - **"Absheron Saffron Ltd" MMC** qeydiyyata alınıb. Şirkət müasir texnologiyalar və yerli xammal əsasında zəfəranın emalını və ondan müxtəlif növ məhsulların istehsalını həyata keçirəcəkdir. Müəssisədə 50 yeni iş yeri açılacaq. İqtisadiyyat Nazirliyinin geniş kollegiya iclasında nazir Şahin Mustafayev bildirib ki, Pirallahı Sənaye Parkında investisiya dəyəri 100 mln. ABŞ dollarından artıq olan əczaçılıq, şpris və uşaq bezlərinin istehsalı müəssisələrinin yaradılması işləri aparılır.

Bütün bunlar onu deməyə əsas verir ki, tezliklə Azərbaycanın yüksək keyfiyyətli zəfəranı yenidən süfrələrimizə qayıdacaq, ləziz təamlarımıza dad verəcək.

**Yeganə MƏMMƏDOVA**